Bir kişi dəstəmaz aldı və ayağında dırnaq boyda yuyulmayan yer buraxdı. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bunu gördü və dedi: “Geri qayıt və dəstəmazı gözəl şəkildə al!”. O kişi qayıdıb yenidən dəstəmaz aldı, sonra namaz qıldı

Cabirdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Ömər bin Əl-Xəttab (Allah ondan razı olsun) mənə dedi: Bir kişi dəstəmaz aldı və ayağında dırnaq boyda yuyulmayan yer buraxdı. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bunu gördü və dedi: “Geri qayıt və dəstəmazı gözəl şəkildə al!”. O kişi qayıdıb yenidən dəstəmaz aldı, sonra namaz qıldı.
[Şahidlərlə səhih olan] [Muslim rəvayət etdi]

Ömər (Allah ondan razı olsun) xəbər verir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir kişinin dəstəmazını bitirdiyini və ayağında dırnaq boyda su dəyməyən yer buraxdığını gördü. O, dəstəmazdakı nöqsan olan yerə işarə edərək dedi: Geri qayıt və dəstəmazını gözəl şəkildə al, dəstəmazı tamamla və hər bir üzvə lazım olan miqdarda su ver. Kişi qaytdı, dəstəmazını tamamladı, sonra namaz qıldı.

http://www.sunnah.global/hadeeth/az/show/8386